

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 45 (23.457)

*5 mart 2020-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Ağstafa rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı həmin gün "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağstafa filialının fəaliyyəti ilə tanış olub.

Ağstafa rayonuna səfəri çərçivəsində Prezident İlham Əliyev Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Müdafiə Nazirliyinin Ağstafada yerləşən "N" hərbi hissələrinin, Ağstafa Aqrar Sənaye Kompleksinin, Ağstafa-Yenigün-Xətai-Qaçaq Kərəm-Poylu-Xılxına avtomobil yolunun yenidənqurma və bərpadan sonra açılışlarında iştirak edib.

Həmin gün 110/35/10 kilovoltluq "Ağstafa" elektrik yarımstansiyası yenidənqurmadan sonra istismara verilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Tovuz rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Tovuz filialının fəaliyyəti ilə tanış olub.

Prezident İlham Əliyev Tovuz rayonuna səfəri çərçivəsində Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin, Tarix-Diyarşünaslıq Muzeyinin, Dövlət Rəmzləri Muzeyinin, "ASAN Həyat" kompleksinin, yeni avtomobil yolunun yenidənqurmadan sonra açılışlarında iştirak edib.



## V.Ş.Sevdimaliyevin Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüsal Şəmsəddin oğlu Sevdimaliyev Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 mart 2020-ci il*

## R.H.Məmmədovun Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri vəzifəsindən azad edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Həmid oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 mart 2020-ci il*

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yeni xidməti avtomobillər və avadanlıqlar təqdim olunub





Bu gün muxtar respublikada əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir, Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazası gücləndirilir.

Martın 4-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinə yeni xidməti avtomobillər və avadanlıqlar təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar naziri, general-leytenant Şamı Abdullayev Ali Məclisin Sədrinə raport vermişdir.

Sonra avadanlıqlara baxış olmuşdur. Məlumat verilmişdir ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə



Rusiya və Almaniya istehsalı olan 7 yanğınsöndürən avtomobil, eyni zamanda 2 xidməti minik avtomobili gətirilmişdir. Yanğınsöndürmə avtomobilləri 3500 litr köpükəmələgətirən maye ilə təchiz edilmişdir. Nazirliyə fərdi tənəffüs vasitələri, sınaq avadanlığı, yanğın nərdivanları, yanğınsöndürən və xilasedicilər üçün xüsusi geyim formaları və digər texniki vasitələr olmaqla, 63 adda müxtəlif təyinatlı avadanlıqlar, eləcə də tibbi çadır verilmişdir.

Tibbi çadır fəlakət ocaqlarında xəsarət alan insanlara ilk tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulmuş və lazımi şəraitlə təmin olunmuşdur.

Ali Məclisin Sədri avtomobil və avadanlıqlardan təyinatı üzrə düzgün istifadə olunması barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 2019-cu ildə nəşr edilən kitabların təqdimatı keçirilib

*Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 2019-cu ildə nəşr olunan kitabların təqdimatı keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının sədr müavini Surə Seyid çıxış edərək bildirib ki, fond tərəfindən 2019-cu il ərzində bir sıra tədbirlər həyata keçirilib, ümummilli lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinə həsr edilmiş elmi konfranslar təşkil olunub, Heydər Əliyev Muzeyi ilə ümumtəhsil məktəbləri arasında interaktiv dərslər keçilib. Naxçıvan Muxtar Respublikasının 95 illik yubiley tədbirləri keçirilib, “Muxtariyyətin 95 ili” filmi, “Naxçıvan Muxtar Respublikası-95” adlı statistik toplu hazırlanıb, “Naxçıvan bu gün” kitabı da yeni təqdimatda işıq üzü görüb. “Ərtoğrol Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında” Sərəncama əsasən silsilə tədbirlərlə yanaşı, yubilyarın əsərlərindən ibarət “Natamam ömrün yüzillik təntənəsi” adlı kitab, “Ərtoğrol Cavid: taleyi və sənəti” məqalələr toplusu nəşr olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamına əsasən Bilik Fondunun təşkilatçılığı ilə bir sıra tədbirlər həyata keçirilib. Bu tədbirlər sırasında buklet və disklər, “Naxçıvan Duzdağı” kitabı hazırlanıb, *duzdag.nakhchivan.az* internet portalı istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı ilə yubiley tədbirləri çərçivəsində “Naxçıvan Dövlət Tarix Muzeyi-95” tanıtım kitabı nəşr edilib.

Diqqətə çatdırılıb ki, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində Naxçıvanın ilk qəza rəisi Akim Şahin Gireyin fondu yaradılıb, həmçinin onunla bağlı sənədli televiziya filmi hazırlanıb. Ali Məclis Sədrinin “Görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi haqqında” Sərəncamına uyğun olaraq bir sıra elmi-kütləvi tədbirlər keçirilib. AMEA Naxçıvan Bölməsi tərəfindən alimin “Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə” (“Quranın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi”) əsərinin II cildi tərcümə olunaraq Bilik Fondu tərəfindən nəşr edilib, “Nemətullah Naxçıvani: taleyi və sənəti” məqalələr toplusu çap olunub.

Qeyd edilib ki, Bilik Fondu tərəfindən görkəmli rəssam İbrahim Səfiyevin yaradıcılığının tədqiqi də davam etdirilib, “İbrahim Safi: albom-kataloq”u hazırlanıb. Bilik Fondu müvafiq sərəncama uyğun olaraq Rəssamlar Birliyi ilə birgə təşkil etdiyi muxtariyyətin 95 illiyinə həsr olunmuş Festival-Müsabiqədə sərgilənən əsərlərdən ibarət “Yurdumun rəngləri” adlı albom-kataloq nəşr olunub.

Muxtar respublikanın ümumtəhsil məktəblərinin 7-ci siniflərində Naxçıvan tarixinin dərsdənkənar məşğələ olaraq tədrisi ilə əlaqədar Təhsil Nazirliyi Bilik Fondunun dəstəyi ilə üç bölmədən ibarət olan “Naxçıvan tarixi” adlı dərs vəsaiti nəşr etdirib. Fond tərəfindən nəşr olunan “Milli dəyərlərimiz rəsmi sənədlərdə” adlı topluda muxtar respublikada milli dəyərlərimizin yaşadılması ilə bağlı sərəncamlar və həyata keçirilən tədbirlər işıqlandırılıb. Bilik fondu tərəfindən yazıçı Rövşən Novruzoğlunun “Əshabi-Kəhf”ə məktub: Sürgündə qalan əhli-əyalım var” adlı kitabının nəşrə hazırlanmasını və təqdimat mərasiminin keçirilməsini, “Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı beynəlxalq konfransın materialları” jurnalının çap edilməsini nümunə göstərmək olar. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunan “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilən əsərlərdən ibarət sərgilər təşkil olunub, kitabların müzakirələri aparılıb. Bilik Fondu tərəfindən 2019-cu ildə “Pedaqoji fikir tarixindən” və Reyhan Mirzəzadənin “A.S.Qriboyedov: şair-diplomat” kitabları nəşr edilərək təqdimat mərasimləri keçirilib. Həmin nəşrlər “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil edilib.

AMEA Naxçıvan Bölməsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü, akademik İsmayıl Hacıyev çıxışında bildirib ki, Ali Məclis Sədrinin dəstəyi ilə hər il müxtəlif xarakterli nəşrlər işıq üzü görür. 2019-cu ildə də bu istiqamətdə işlər uğurla davam etdirilib, 30-a yaxın müxtəlif əsərlər nəşr olunub. Ötən il çap edilən həmin kitablar bir daha göstərir ki, bu gün qədim köklərə malik Naxçıvanla bağlı müxtəlif istiqamətlərdə elmi tədqiqatlar aparılması davamlı xarakter alıb.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Bilik Fondunun Himayəçilik Şurasının üzvü Asim Əliyev çıxışında qeyd edib ki, Ali Məclisin Sədri yanında Bilik Fondunun fəaliyyəti muxtar respublikamızın hərtərəfli inkişafına, elm, təhsil və mədəniyyət sahələrində böyük irəliləyişlərə gətirib çıxarır. Çap edilən nəşrlər tədris prosesinə cəlb olunması ilə gələcək nəslin milli özünüdərk, vətənpərvərlik, milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsində mühüm rol oynamaqdadır.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 2019-cu ildə nəşr olunan kitablardan ibarət sərgiyə baxış olub.

**✍ Nail ƏSGƏROV**

## Vergi ödənişləri iqtisadi inkişafın əsasını təşkil edir

Həyata keçirilən vergi siyasəti ilə bağlı muxtar respublikada görülən işlər öz nəticəsini verməkdədir. Belə ki, 2020-ci ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti üzrə müəyyənləşdirilmiş proqnoz 101,8 faiz icra edilib.

Sosial sığorta fiziki şəxslərin itirilmiş əməkhaqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Qeyd olunan dövrdə məcburi dövlət sosial sığorta haqları üzrə proqnoza 104,1 faiz, işsizlikdən sığorta üzrə proqnoza isə 110,7 faiz əməl edilib. İstər vergilər, istərsə də məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta üzrə proqnozlar bütün yerli vergi orqanları üzrə artıqlaması ilə icra edilib.

Muxtar respublika iqtisadiyyatının aparıcı qüvvəsi olan sahibkarlığın inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilir. Sahibkarlara verilmiş kreditlər yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, xüsusilə fərdi sahibkarlığın inkişafına sərf olunub. Hesabat dövründə Dövlət Vergi Xidmətinin “bir pəncərə” qeydiyyat sistemi vasitəsilə 3 publik hüquqi şəxs, 7 kommersiya hüquqi şəxs və 3 qeyri-kommersiya hüquqi şəxs, həmçinin yerli vergi orqanları tərəfindən 274 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 75,2 faizi muxtar respublika rayonlarının payına düşüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Muxtar respublikada uşaqlar ötən il də dövlətin diqqət və qayğısı ilə əhatə olunublar

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ötən il də qarşıya qoyulmuş vəzifələrin icrasına nail olub.*





Valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqların ailə mühitində yaşamasının təmin olunması məqsədilə 2019-cu il ərzində 9 uşaq qəyyumluq və himayəyə, 6 uşaq övladlığa götürülüb. Həmin qəbildən olan 1006 uşağa hədiyyə və sovqatlar, 15 sentyabr – Bilik Günü ilə əlaqədar xüsusi qayğıya ehtiyacı olan 379 uşağa məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə ki, 2019-2020-ci tədris ilində ümumtəhsil müəssisələrinin birinci siniflərinə 83, distant tədrisin birinci sinfinə 6, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbin birinci sinfinə 2, məktəbdənkənar müəssisələrin dərnəklərinə 126, şahmat məktəblərinə 59, idman məktəblərinə 168, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə 111, məktəbəqədər təhsil müəssisələrinə, ümumtəhsil məktəblərində fəaliyyət göstərən hazırlıq qruplarına və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin defektoloji bölmələrinə 193 sağlamlıq imkanları məhdud uşaq cəlb edilib.

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində 12 uşağın təhsil aldığı art terapiya kursları təşkil edilib. Mərkəzdə audio və elektron kitabxanaların zənginləşdirilməsi məqsədilə il ərzində elektron kitabxana fonduna 100 yeni elektron kitab, audiokitabxana fonduna 39 əsər və 18 sənədli film əlavə olunub. Görmə məhdudiyyətli uşaqlar üçün “Könül işığı” adlı brayl jurnalının, “Şəfəq” adlı xüsusi nəşrlərin nömrələri də audiokitabxananın kataloquna daxil edilib.

Sağlamlıq imkanları məhdud uşaqlar peşə təhsilindən də kənarda qalmayıblar. Ümumtəhsil məktəblərini bitirən bu kateqoriyadan olan şəxslərdən 12 nəfəri orta ixtisas təhsili müəssisəsinə, 14 nəfəri isə ali təhsil müəssisələrinə qəbul olunub.

Onların tibbi reabilitasiyası da diqqətdə saxlanılıb. Belə ki, il ərzində Naxçıvan Uşaq Bərpa Mərkəzində bu qəbildən olan 435 uşaq müalicə alıb, 73 uşağa protez-ortopediya xidmətləri göstərilib, 58 uşağa texniki reabilitasiya vasitələri verilib.

Məktəblilər arasında keçirilən fənn olimpiadasında 1 nəfər sağlamlıq imkanları məhdud uşaq III yerə layiq görülüb, həmçinin 250-dən çox uşaq idman oyunlarında iştirak edib. Bundan əlavə, Xırdalan və Naxçıvan şəhərlərində keçirilən idman yarışlarında isə 2 nəfər I yerin, 2 nəfər isə III yerin qalibi olub. Həmçinin Ağbulaq İstirahət Mərkəzində 422 uşağın istirahəti təşkil edilib.

Bu dövrdə uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının proqram təminatı yenilənib, uşaqlar haqqında fərdi məlumatlar daxil olunub, bankdakı uşaqların sayı 24 min 489 nəfərə çatıb.

İl ərzində ixtisaslı həkim briqadaları tərəfindən ucqar dağ kəndlərində 1795 uşaq müayinə edilib, ehtiyacı olanlara tibbi yardım göstərilib.

Son illər uşaqların sayı da artmaqdadır. Belə ki, təkcə ötən il 5415 uşaq doğulub və muxtar respublikada uşaqların sayı 164 min 546-ya çatıb. Bu da əvvəlki illə müqayisədə 1265 uşaq çoxdur. Hesabat ili ərzində doğulan 4918 uşağa peyvəndlər vurulub.

Bəhs olunan dövrdə ümumtəhsil məktəblərini bitirmiş şagirdlərdən 1720-si ali təhsil müəssisələrinə, 366-sı ümumi, 244-ü tam orta təhsil bazası olmaqla, 580-i orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Ali məktəblərə qəbul olunan 281 nəfər 500-700 arası bal toplayıb ki, bunlardan da 172-si qızdır. Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 180 nəfəri isə müxtəlif ali hərbi məktəblərə daxil olub.

2018-2019-cu tədris ilində məktəbi tam orta təhsil bazası üzrə bitirən məzunlardan 13-ü “Qızıl”, 16-sı “Gümüş” medala, 45-i isə fərqlənmə attestatına layiq görülüb. Həmin məzunlar onlara göstərilən etimadı doğrulddublar. Belə ki, qəbul imtahanlarında onlardan 35-i 500-600, 39-u 600-700 arası bal toplayıb, 4 məzun isə Prezident təqaüdünə layiq görülüb.

İstedadlı uşaqlar və gənclərin təhsilinin davam etdirilməsi məqsədilə muxtar respublika məktəblərinin fənn olimpiadaları keçirilib. Həmin olimpiadalarda 2-si “Qızıl”, 6-sı “Gümüş”, 17-si isə “Bürünc” olmaqla, 25 şagird medala layiq görülüb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 24 iyun tarixli Sərəncamı ilə 2019-cu ildə muxtar respublikada xüsusi istedadı olan 3 məktəblinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılıb və onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 mart tarixli “Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin təşkili haqqında” Sərəncamına uyğun olaraq elmi dərəcəli müəllimlər tərəfindən 2019-cu il ərzində muxtar respublikanın ümumtəhsil məktəblərində 1465 saat nümunəvi dərs tədris olunub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamından irəli gələn vəzifələrin həlli də diqqətdə saxlanılıb. Belə ki, ümumtəhsil məktəblərində 49 interaktiv dərs keçilib, 670-dən çox elektron lövhə vasitəsilə şagirdlərə müxtəlif fənlər tədris edilib, 90 faizdən yuxarı internetə qoşulmaqla, 9 şagird 1 kompüter dəstindən yararlanıb.

Muxtar respublikada uşaq və gənclərin qabiliyyət və bacarıqlarının, intellektual səviyyələrinin və yaradıcılıq qabiliyyətlərinin inkişafı istiqamətində Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində innovativ dərnəklər fəaliyyətə başlayıb.

Uşaqların sağlamlığının qorunması, möhkəmləndirilməsi və asudə vaxtlarının səmərəli təşkili üzrə də bir sıra işlər görülüb. 7200-dən artıq uşaq idman oyunlarında, 1042 uşaq isə intellektual olimpiada və oyunlarda iştirak edib. Bu gün muxtar respublikada 26000-dən artıq uşaq idmanla məşğul olur ki, bunlardan da 8000-ə yaxını qızdır. İdmanla məşğul olan uşaqlar Azərbaycan birinciliyində, Azərbaycan, Avropa və dünya çempionatlarında, beynəlxalq turnirlərdə və beynəlxalq şahmat festivallarında 56-sı I, 52-si II, 83-ü isə III yer olmaqla, ümumilikdə, 191 yer qazanıblar.

Naxçıvan şəhərində fəaliyyət göstərən bağçalarda və tam orta məktəblərin ibtidai siniflərində kitaba marağın artırılması məqsədilə 285 “Nağıl günü” keçirilib, bütün kateqoriyadan olan uşaqlara 167 tamaşa, 17 bədii film göstərilib.

*Bəhs olunan dövrdə aid dövlət orqanlarına Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrində müəyyən edilən yaş həddinə çatmayanların ictimai təhlükəli əməllər törətməsi barədə, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini lazımınca yerinə yetirməyən valideynlər və ya digər qanuni nümayəndələr barəsində ərizə və müraciətlər daxil olmayıb.*

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*5 mart Bədən Tərbiyəsi və İdman Günüdür*

## Naxçıvanda bədən tərbiyəsi və idmanın inkişafı yeni mərhələyə yüksəlmişdir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Bədən Tərbiyəsi və İdman Günü”nün təsis edilməsi haqqında 2005-ci il 4 mart tarixli Sərəncamına əsasən hər il martın 5-i ölkəmizdə “Bədən Tərbiyəsi və İdman Günü”kimi qeyd olunur.***

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dövründə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət yetirmiş, gənc nəslin fiziki cəhətdən sağlam böyüməsi qayğısına qalmışdır. Ulu öndərin 1994-cü il 26 iyul tarixli Fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması ölkədə idmanın inkişafına güclü təkan vermişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda idmanın və olimpiya hərəkatının inkişafı üçün dövlət səviyyəsində mühüm tədbirlər həyata keçirilmiş, 1997-ci ildən gənclər və idman siyasəti yeni mərhələyə qədəm qoymuşdur. Həmin il iyul ayının 31-də cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkəmizdə idman hərəkatı daha da genişlənmiş, bu sahənin inkişafına xidmət edən kompleks tədbirlərin həyata keçirilməsinə başlanılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“İdmanın inkişafı bizim dövlət siyasətimizdir və idman infrastrukturunun yaradılması prosesi davam edir. Biz gələcək illərdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik ki, hər bir rayonda idmanla məşğul olmaq üçün ən müasir şərait yaradılsın”.*** Son illər ölkə iqtisadiyyatının sürətli inkişafı bədən tərbiyəsi və idmanı da əhatə etmişdir. Ölkə başçısının diqqət və qayğısı ilə Azərbaycanın hər yerində müasir idman kompleksləri tikilib istifadəyə verilir, mövcud idman obyektləri günün tələblərinə uyğun yenidən qurulur, maddi-texniki baza möhkəmləndirilir. Peşəkar idmançıların yetişdirilməsi, bu sahədə qazanılan nailiyyətlərin ildən-ilə artması, beynəlxalq yarışlarda yüksək nəticələrin əldə olunması və ölkəmizin beynəlxalq yarışlara ev sahibliyi etməsi dövlətin bu sahəyə olan qayğısının nəticəsidir. Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafına qayğı göstərilir. Hazırda muxtar respublikada 2 olimpiya idman kompleksi, 2 üzgüçülük mərkəzi, Şahmat Mərkəzi, Atıcılıq Mərkəzi, rayon mərkəzlərində şahmat məktəbləri, Uşaq-gənclər idman məktəbləri, stadion və süni örtüklü mini-futbol meydançaları, tam orta məktəblərdə müasir idman zalları, olimpiya ağırlıqqaldırma qurğuları və 886 sadətipli idman avadanlıqları mövcuddur. 2002-ci ildə boks, güləş, karate-do, şahmat, futbol, voleybol, basketbol, yüngül atletika, 2006-cı ildə paralimpiya, 2013-cü ildə atıcılıq, hava və ekstremal idman növləri, 2018-ci ildə kikboksinq federasiyaları yaradılmışdır. Bundan başqa, “Araz-Naxçıvan” Peşəkar Futbol Komandasının fəaliyyəti bərpa olunmuş və “Əlincə” Stolüstü Tennis Klubu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində Şərur Rayon Ağır Atletika Bölməsi və “Xatun” Bədii Gimnastika İdman Klubu fəaliyyətə başlamışdır.








Bu gün muxtar respublikada gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması işləri diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı həyata keçirilməsi və yaradılan müasir idman mühiti gənclərin bədən tərbiyəsi və idmana olan marağını artırır, idman klublarının və federasiyaların heyəti ilbəil genişlənir. Bu gün muxtar respublikamızda, ümumilikdə, 36 min 881 yeniyetmə və gənc aktiv şəkildə idmanla məşğul olur. Onların respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilir. Bütün bunların nəticəsidir ki, yeni idmançılar nəsli yetişir, müxtəlif idman növləri üzrə uğurların sayı daha da artır.

Muxtar respublikada qadınların idmana cəlbi istiqamətində də mühüm işlər görülmüş, müxtəlif idman federasiyaları üzrə qızlardan ibarət klublar yaradılmış, onların idman obyektlərindən istifadəsi təmin olunmuşdur. Muxtar respublikada stolüstü tennis, üzgüçülük, həndbol, fitnes, aerobika və Şərur rayonunda fəaliyyət göstərən ağır atletika bölmələrində, həmçinin idmanın müxtəlif növləri ilə məşğul olan qızların sayı ilbəil artır. Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən “Xatun” Bədii Gimnastika İdman Klubunda hazırda 70-dən çox qız bədii gimnastika ilə məşğul olur. Gənclər və İdman Nazirliyi tərəfindən bölmələrdə fəaliyyət göstərən məşqçi-müəllimlər ixtisasartırma kurslarına göndərilmiş, Azərbaycan Gimnastika Federasiyasının məşqçiləri muxtar respublikaya dəvət olunmuş və bədii gimnastika üzrə təlim-məşq keçmişlər.

Muxtar respublikada olimpiya idman komplekslərində, idman mərkəzlərində, şahmat məktəblərində, stadionlarda, mini-futbol meydançalarında, ümumtəhsil məktəblərinin idman zallarında, muxtar respublikanın şəhər, rayon və qəsəbələrində fəaliyyət göstərən idman federasiyalarının klub və bölmələrində, Uşaq-gənclər idman məktəblərinin qruplarında, ümumilikdə, 36 min 272 uşaq və gənc idmanla məşğul olur ki, onun da 27 min 215-i oğlan, 9057-si isə qızdır.

Gələcəyimiz olan gənclərin fiziki cəhətdən sağlam böyüməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Ona görə də muxtar respublikada bu sahənin inkişafı mühüm və qabaqcıl istiqamət kimi müəyyənləşdirilmişdir. Gənclərlə iş, bədən tərbiyəsi və idman sahəsində qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr də məhz bu məqsədə xidmət edir.

2020-ci il fevralın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda keçirilən müşavirədə Ali Məclisin Sədri demişdir: ***“Bədən tərbiyəsi və idman insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin edir, əhalinin əmək qabiliyyətini yüksəldir, uzunömürlülüyü artırır, zərərli vərdişlərin qarşısını almaqla gəncləri fiziki və mənəvi cəhətdən vətənin müdafiəsinə hazırlayır. Naxçıvan Muxtar Respublikasında əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Yaradılan şərait idmanın kütləviliyinə, muxtar respublikamızda beynəlxalq və ölkə səviyyəli yarışların keçirilməsinə şərait yaradır”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov fevralın 14-də “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Dövlət proqramı müasir dövrün reallıqları nəzərə alınmaqla uşaq və gənclərin idmana cəlbinin kütləviləşməsinə, əhalinin fiziki sağlamlığının qorunmasına yeni imkanlar yaradacaqdır. Əsas məqsəd isə əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi, həmçinin idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılmasından ibarətdir.

Muxtar respublikada ölkə və beynəlxalq səviyyəli yarışların keçirilməsi də nəzərdə tutulur ki, bunlara misal olaraq karate-do üzrə dünya kubokunu və Azərbaycan çempionatını, 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasını, ümummilli lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümünə həsr olunmuş cüdo və futbol üzrə beynəlxalq turnirləri, şahmat üzrə Beynəlxalq Şahmat Festivalını, eləcə də bu il ilk dəfə keçiriləcək “5 mart – Bədən Tərbiyəsi və İdman Günü”nə həsr olunmuş “İdman festivalı”nı göstərə bilərik. 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadası 2020-ci il oktyabrın 2-dən 12-dək Naxçıvan şəhərində keçiriləcək.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi qarşıya qoyulan bu tapşırıqların icrasını diqqət mərkəzində saxlamaqla, istedadlı idmançılar nəslinin yetişdirilməsi üçün bütün səylərdən istifadə edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## İdman festivalı muxtar respublikada idmanın kütləviləşməsinə mühüm çağırışdır

***Bu festival həm də Naxçıvanda idman turizminin inkişafına yeni imkanlar açır***

*Hazırda dünya turizm trendlərindən biri də idman turizmidir. XX əsrin sonlarından başlayaraq inkişaf etmiş ölkələrin turizm bazarında mühüm istiqamət kimi qəbul edilən idman turizmi bu gün özünün yeni inkişaf dövrünə qədəm qoyub. Təcrübə də göstərir ki, son illərdə insanlar daha aktiv istirahəti seçirlər. Bu isə idmanın ayrı-ayrı növlərinin kütləvi təbliğinə imkan verir. Burada təkcə hər hansı bir idman növü üzrə yarışlardan söhbət getmir. Heç şübhəsiz ki, idman yarışları mühüm təbliğat vasitəsidir, lakin bununla bərabər, aktiv həyat tərzi keçirənləri əsas düşündürən odur ki, turist səyahətlərində bu aktivliyi təmin edə bilsinlər. Bu fəallıq da, əsasən, idman və əyləncəni bir arada təşkil etməkdən ibarətdir. Müxtəlif idman festivalları, veloturlar, dağ xizəkçiliyi, skandinav yürüşləri, marafonlar, sərbəst üzgüçülük, alpinizm və digərləri idman turizmində ən öndə gələnlərdir.*

Qəzetimizin əvvəlki saylarında bir neçə dəfə bu mövzuya toxunaraq qeyd etmişik ki, Naxçıvanda idman turizminin inkişafı üçün geniş imkanlar vardır. Çünki muxtar respublikada qapalı idman infrastrukturları ilə yanaşı, müxtəlif yarışların keçirilməsi üçün tələb olunan əlverişli coğrafi ərazilər də mövcuddur. Nəzərə alaq ki, Naxçıvan Muxtar Respublikasının ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz silsilələri və onların cənuba doğru uzanan orta və alçaq dağlıq yaradan qolları tutur. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsiləsidir. Bu silsilənin ən hündür zirvəsi olan Qapıcıq dağı isə (3906 metr) Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisindəki ən yüksək zirvəsidir. Bundan əlavə, hündürlüyü 3000 metrdən çox olan Yağlıdərə, Qazangöl, Sarıdərə, Dəvəboynu dağları, dəniz səviyyəsindən yüksəkliyi 2000 metrdən çox olan onlarla aşırımlar, eləcə də alçaq və orta yüksəklikli çoxsaylı dağ və təpələr Naxçıvanın əsrarəngiz relyefini formalaşdırır. Bu coğrafi potensial ekstremal turizmin inkişafında əhəmiyyətli rol oynayır. Həm müxtəlif yüksəkliklərdəki dağlıq, həm də düzənlik əraziləri, demək olar ki, əksər idman növləri ilə məşğul olmaq üçün əlverişli sayılır.

Bunu da qeyd edək ki, son illərdə muxtar respublikada turizmin, xüsusilə idman turizminin inkişafı üçün bir sıra mühüm addımlar atılıb. Şahbuz rayonunun Ağbulaq kəndində yaradılmaqda olan Xizək Mərkəzi xizəksevərlər üçün töhfə olmaqla yanaşı, həm də dağ-xizək turizminin inkişafına şərait yaradacaq. Qeyd edək ki, Əlincəqala və Hacədağa kütləvi yürüşlərin təşkil olunması muxtar respublikada idman turizminin inkişafında atılan uğurlu addımlardandır. Bununla yanaşı, Şahbuz rayonunun Batabat yaylağında mövcud infrastrukturun yaradılması bura üz tutan insanlara piyada yürüşləri üçün gözəl imkanlar təqdim edir.

Ümumilikdə, son illərdə muxtar respublikada idmanın inkişafı istiqamətində böyük işlər görülüb. Bütün bölgələrimizdə yeni idman qurğuları yaradılıb, mövcud olanlar yenidən qurulub, uşaq, yeniyetmə və gənclərin idmana cəlbi sahəsində mühüm addımlar atılıb. Muxtar respublikada hər il beynəlxalq idman yarışlarının keçirilməsi, idmanın müxtəlif sahələri üzrə qazanılmış uğurlar Naxçıvanda bu sahənin ildən-ilə daha da inkişafına səbəb olub. Təsadüfi deyil ki, hər il ənənəvi olaraq keçirilən idman müşavirələrində də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada idmanın kütləviləşməsinə nail olunmasını xüsusi vurğulayır. Bu istiqamətdə görülən işlərdən biri də bu il ilk dəfə Naxçıvanda idman festivalının təşkil olunmasıdır.

Bu gün keçirilən idman festivalı muxtar respublika tarixində bir ilkdir və bu maraqlı tədbir təkcə idmançılar deyil, hər kəs tərəfindən təqdir olunur. Festivalın təşkili bir çox əhəmiyyətli tərəfləri ilə diqqət çəkir.

Birincisi, festivalın təşkili onun göstəricisidir ki, Naxçıvanda böyük idman potensialı var. Bu potensial həm yaradılmış idman infrastrukturu, həm də ötən dövrdə yetişən idmançılar ordusunun özündə cəmləşdirir. Məhz bu iki amil muxtar respublikada idman festivalını təşkil etmək üçün zəruri baza hesab olunur. Bundan əlavə, son illərdə Naxçıvanın mühüm beynəlxalq idman yarışlarına ev sahibliyi etdiyini də nəzərə alsaq, verilən qərarın təqdirəlayiq hadisə olduğunu bir daha görərik.

İkincisi, ayrı-ayrı idman yarışlarından fərqli olaraq keçirilən festival bütün idmançıları bir araya toplayır ki, bu da tədbirin rəngarəngliyi və idmanın cəmiyyətə bütöv təqdimatı baxımından məxsusi əhəmiyyət daşıyır. Digər tərəfdən, burada festival iştirakçılarının tanınmış idmançılarla ünsiyyəti üçün əlverişli şərait yaranır.

Üçüncüsü isə odur ki, muxtar respublikada keçirilən idman festivalı təbliğat xarakteri daşıyır. Bu tədbir ən azından region ölkələrinə Azərbaycanla bağlı bir ismarıcdır ki, onun bu diyarında idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün lazımi şərait var və Naxçıvan özünün idman imicini turizmlə birgə təqdim etmək imkanına malikdir.

Təbii ki, idman təkcə yarışlarda qazanmaq deyil, həm də sağlam həyat tərzini yaşatmaqdır. Bunun üçünsə, idmanın kütləviləşməsi əsas şərtdir. Muxtar respublikada ilk idman festivalının keçirilməsi də idmanın kütləviləşməsinə təsir göstərən mühüm çağırışdır.

**Səbuhi HƏSƏNOV**

## Müşavirə keçirilib

Naxçıvan Şəhər İcra Hakimiyyətində bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı müşavirə keçirilib. Tədbirdə çıxış edən icra başçısı Mirsənani Seyidov bildirib ki, muxtar respublikamızda olduğu kimi, Naxçıvan şəhərində də uşaq və gənclərin idmanla məşğul olması, onların müxtəlif səviyyəli turnir və yarışlarda iştirak etməsi üçün hərtərəfli şərait yaradılıb. Bu gün Naxçıvan şəhərinin idmançıları müxtəlif idman növləri üzrə 12 federasiyada təmsil olunur, uğurlara imza atırlar. Ötən il ərzində müxtəlif idman növləri üzrə, ümumilikdə, 99 Naxçıvan şəhər birinciliyi və yoldaşlıq görüşü təşkil edilib. 5700 yeniyetmə və gəncin bu yarışlarda iştirakı təmin olunub. Naxçıvan şəhəri 2019-cu ildə 3 beynəlxalq turnirə, 1 festivala, futbol üzrə Azərbaycan kuboku finalına, futbol üzrə 4-cü Heydər Əliyev kuboku uğrunda birinciliyə, 52 muxtar respublika çempionatı, turniri və birinciliyinə yüksək səviyyədə ev sahibliyi edib.

Diqqətə çatdırılıb ki, 2019-cu ildə Naxçıvan şəhər idmançılarından 596 nəfər ayrı-ayrı idman növləri üzrə keçirilən yarışlarda müxtəlif yerlərə layiq görülüb. Bunlardan 4-ü dünya, 19-u Avropa, 139-u beynəlxalq, 100-ü Azərbaycan, 334-ü isə muxtar respublika birincilikləri olub. Qadınlarımızın da idmana cəlbi diqqətdən kənarda qalmayıb, ötən il idmanın müxtəlif növləri üzrə 3010 qadın idmanla məşğul olub.

İcra başçısı bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə verilən tapşırıqların Naxçıvan şəhərində icrası üçün müvafiq tədbirlər görülməlidir.

Sonra mövzu ətrafında çıxışlar dinlənilib, ötən il idman sahəsində fərqlənən yeniyetmə və gənc idmançılar mükafatlandırılıblar.

**Qafar QƏRİB**

# Bu gün onların günüdür

## Hərtərəfli şərait gənc idmançılarımızın karyerasında dönüş yaradıb

*Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan gənclər və idman siyasəti bu gün uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da idman əsl yüksəliş dövrünü yaşayır, diyarımızda müasir idman infrastrukturunun yaradılması istiqamətində işlər də davamlı xarakter alıb. Naxçıvanda müasir idman obyektlərində təcrübəli məşqçilərin rəhbərliyi altında aparılan gərgin məşqlər böyük yarışlarda uğurlu nəticələr əldə edilməsinin başlıca şərtidir. Eyni zamanda diyarımız hər il dünya və Avropa çempionatları, beynəlxalq və ölkədaxili turnirlərə ev sahibliyi edir.*

5 mart – Bədən Tərbiyəsi və İdman Günü ərəfəsində isə muxtar respublikanın idman mühitində xüsusi canlanma müşahidə olunur. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, idman federasiyaları, müxtəlif idman kollektivləri diyarımızın idman həyatında mühüm hadisə kimi yadda qalacaq ilk idman festivalına hazırlaşırlar. Fevral ayının 1-də “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” keçirilən müşavirədə verilən tapşırığa əsasən təşkil edilən festivala ciddi hazırlıq işləri də deməyə əsas verir ki, bu tədbir əsl idman bayramı səviyyəsində keçiriləcək. Biz də festival öncəsi muxtar respublikada uğur qazanan idmançılarımızdan bir neçəsinin fikirlərini öyrəndik.

Fərqli düşünmə, uzaqgörənlik, təhliletmə qabiliyyəti, kreativlik kimi üstün keyfiyyətlər aşılayan şahmat bu gün muxtar respublika gənclərinin sevimli idman növünə çevrilib. Bu sahənin inkişafına müntəzəm göstərilən diqqət və qayğı sayəsində son illərdə çox sayda zəka sahibi yetişib. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yetirməsi ***Nazlı Hümbətova***dır. Nazlı kiçik yaşlarından şahmata böyük maraq göstərib. Bu idman növünün sirlərinə dərindən yiyələnmək üçün 6 yaşında Naxçıvan şəhərindəki Şahmat Mərkəzinə üz tutub və burada Hüseyn müəllimdən dərs alıb. Qısa zaman ərzində həmyaşıdları içərisində öz xüsusi istedadı ilə seçilən Nazlı muxtar respublika, ölkə və beynəlxalq səviyyəli bir sıra şahmat turnirlərində uğurlu çıxışları ilə yaddaşlarda iz buraxıb.




2019-cu il bütün yeniyetmə və gənc idmançılarımız kimi, Nazlı Hümbətova üçün də uğurlarla dolu, yaddaqalan olub. Belə ki, ötən il 29 iyul-4 avqust tarixlərdə Türkiyə Cümhuriyyətinin Ankara şəhərində təşkil olunan Çubuk Bələdiyyəsi V beynəlxalq şahmat turnirində istedadlı şahmatçı qızlar arasında üçüncü yüksək nəticəni göstərib. Avqust ayında Sivasda təşkil olunan Buruciye Open-2019 beynəlxalq şahmat turnirində yenə qızlar arasında ikinci yeri tutan Nazlı noyabr ayında şahmat üzrə Azərbaycan çempionatında 12 yaşlı qızların mübarizəsində liderdən cəmi 0,5 xal az toplayaraq çempionatın bürünc mükafatını qazanıb. 2019-cu ilin noyabr ayında Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Təhsil” Respublika İdman Mərkəzi tərəfindən təşkil olunan şahmat üzrə respublika birinciliyində 12 yaşadək qızlar arasında 3-cü yeri tutan Nazlı 2020-ci ildə də nailiyyətlərlə qədəm qoyub. Belə ki, şahmat üzrə Azərbaycan birinciliyinin seçmə yarışlarında 14 yaşlı qızlar arasında II yeri tutub və hazırda aprel ayında Yunanıstanda təşkil olunacaq Avropa çempionatına hazırlaşır.

Naxçıvan şəhərindəki 5 nömrəli tam orta məktəbin 7-ci sinfində oxuyan zəka sahibinin dediklərindən:

– Düşüncə qabiliyyətimin artmasında böyük rol oynayan, daim yeniliklərlə dolu olan şahmata həvəsim hələ uşaq yaşlarımdan yaranıb. Evimizdə ara-sıra anamla şahmat taxtası arxasında əyləşərdik. 6 yaşımdaykən bu idman növünü həyat amalıma çevirməyi və gələcəkdə peşəkar turnirlərdə yer almağı qarşıma məqsəd qoydum. Naxçıvan şəhərindəki Şahmat Mərkəzinə üz tutub qısa zaman çərçivəsində şahmatın sirlərinə dərindən yiyələnməyə başladım, ilk vaxtlarda bir sıra yarışlarda zəkamı sınadım. Kubok, medal və digər mükafatlarım məni gələcəyə nikbin baxmağa, daha səylə çalışmağa sövq edir. Oyun üslubumu, gedişləri, həmlələri isə yarışdan-yarışa daha da təkmilləşdirirəm. Qazandığımız uğurlarda Şahmat Federasiyasının bu idman növünün inkişafı istiqamətində gördüyü işlər böyük rol oynayıb. Dövlətimizin dəstəyi sayəsində yeni-yeni uğurlar qazanacağıma inamım böyükdür. Biz gənc idmançılara yaradılan imkanlara görə minnətdarıq.

Haqqında söhbət açacağımız digər idmançımız ***Hüseyn Əhmədli*** də muxtar respublikanın idman həyatında fərqlənən gənclərdəndir. Gənc idmançı hələ kiçik yaşlarından idmana xüsusi maraq göstərib. Atasının istəyi, 2010-cu ildən Faiq İsgəndərovun məşqçiliyi ilə sərbəst güləş idman növü ilə məşğul olmağa başlayıb. Bir neçə il ərzində məşqlərdən sonra muxtar respublikamızda keçirilən yarışlarda, turnirlərdə fəal iştirak edib və mükafatçılar sırasına daxil olub. Bununla yanaşı, ölkə səviyyəli yarışlarda da o, özünü sınayıb və nailiyyətlər əldə edib. 2017-2018-ci illərin onun idman karyerasında daha uğurlu olduğunu söyləyən müsahibim qeyd edir ki, həmin illərdə artıq ölkədən kənarda, beynəlxalq səviyyəli yarışlarda iştirak etməyə başladım və dəfələrlə muxtar respublikamıza qələbə sevinci ilə qayıtdım. Sonuncu yarışlarımdan olan İran İslam Respublikasının Miyanduab şəhərində keçirilən sərbəst güləş üzrə beynəlxalq turnirdə birinci yeri qazandım. Hazırda bu il may ayında keçiriləcək Azərbaycan çempionatına hazırlaşıram.



Hüseyn Əhmədli bildirir ki, idman sağlam həyat deməkdir. Bu baxımdan bu gün muxtar respublikamızda idman sahəsinə, xüsusilə diqqət göstərilir. Bütün sahələrdə olduğu kimi, biz idmançılar da qayğı ilə əhatə olunduğumuzu hiss edirik. Çünki hər bir idmançını yeni nailiyyətlərə aparan yol ona göstərilən diqqət və inamdan keçir. Bütün bunların müqabilində bizlər, sadəcə, səylə çalışıb, yorucu məşqlərin sonunda şirin zəfərə çatmalı, Azərbaycanımızın bayrağını beynəlxalq arenada qaldırmalı, Dövlət Himnimizi orada səsləndirməliyik!

***Nərgiz Həsənli***nin karate idman növünü seçməsi öz qərarıdır: – Hər zaman şəhərdə idmanla məşğul olan qızları gördükdə məndə bir fikir yaranırdı: böyüyüb idmançı olmaq və ölkəmizi layiqincə təmsil etmək. Bu isə təkcə arzu ilə reallaşmır: bunun üçün idmançıya yaxşı şərait və güclü məşq lazımdır. Qərarımı dəqiqləşdirdikdən sonra Nəriman Quliyevin yanında məşqlərə başladım. Uzun müddət gərgin məşqlər nəticəsində bir çox uğurlar əldə etdim. 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş “Arpaçay Open”, Bakı Open-2019, “Batumi Open” və “Olimpiya ümidləri” adlı beynəlxalq turnirlərdə bürünc medal qazandım. Bu yarışlar mənim üçün təcrübə toplamaq baxımından da önəmli idi. Ötən il ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş karate-do üzrə “Naxçıvan Open” beynəlxalq turnirində isə fəxri kürsünün ən yüksək pilləsinə qalxdım. Bu mənim üçün ən böyük nailiyyət idi.



Makedoniyanın Skopye şəhərində keçirilən karate-do üzrə XI Avropa çempionatı isə karyeramda xoş xatirələrlə yadda qaldı. Qitə birinciliyində kata və kumite yarışlarında mübarizə apardım və bürünc medala layiq görüldüm. Ümumiyyətlə, bu çempionatda komanda yoldaşlarım – naxçıvanlı idmançılar böyük uğur əldə etdilər. Federasiyamız yarışdan sonra hər birimizi mükafatlandırdı. Bu uğurlarla arxayınlaşmayıb məşqlərimi davam etdirir, gələcəkdə keçiriləcək turnirlərdə daha böyük nailiyyətlər qazanmağı qarşıma məqsəd qoymuşam. Karate-do Federasiyası bizim yarışlarda iştirakımızı daim təmin edir. Karateçilər adından yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm.

Kikboksinqçi ***Röya Abdullayeva*** hazırda Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbin 6-cı sinfində təhsil alır. İdmana marağı kiçik yaşlarından başlasa da, Şərq döyüş sənəti olan kikboksinqlə 2016-cı ildən məşğul olur. Röyanın uğurları isə “Turan” Döyüş Klubuna məşqə yazıldıqdan sonra başlayır. Röya deyir ki, ailədə atası idmançıdır: – Bu idman növünü mənə atam öyrədib və hazırda da məşqçi-müəllimimdir. İlk vaxtlarda çətinlik çəksəm də, artıq bir sıra uğurlar əldə etmişəm. 2017-ci ildən Naxçıvan və Bakı şəhərlərində keçirilən idman yarışlarında iştirak edirəm. Bu müddət ərzində “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!” devizi altında yeniyetmə və gənclər arasında keçirilən MMA qarışıq döyüş növü üzrə Naxçıvan şəhər birinciliyində, Bakı şəhərində keçirilən grappling üzrə açıq çempionatda, pankration idman növü üzrə turnirdə, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş kikboksinq üzrə “Heydər Əliyev kuboku” uğrunda muxtar respublika turnirində qalib və mükafatçılar sırasında olmuşam. Ötən il kikboksinq üzrə keçirilən Azərbaycan birinciliyinin qalibi olmuşam. 2019-cu il ərzində kikboksinq idman növü üzrə keçirilən yarışlarda uğurlu nəticələr əldə etdiyimə görə Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyası tərəfindən diploma təltif edilmişəm.



Röya 2020-ci ildə də uğurlarını davam etdirir. Bu il Bakıda keçirilən MMA, pankration və grappling idman növləri üzrə uşaq, yeniyetmə, gənc, böyüklər arasında açıq Bakı çempionatında və grappling üzrə Bakı şəhər birinciliyində qızıl medal qazanıb.

Röya deyir ki, kikboksinq gənc və çətin bir idman növüdür. Burada əsas olan bədəni düzgün idarə etmək bacarığıdır. Kikboksinqlə məşğul olmaq özünənamı təlqin edir, dözümlülük, səbir və əzm öyrədir. Həmçinin bu idman növü insanlara qorxularından xilas olmağa kömək edir. Kikboksinqdə uğur qazanmaq üçün çox çalışmaq lazımdır. Məqsədim gələcəkdə peşəkar idmançı kimi dünya çempionatında ölkəmizi layiqincə təmsil edib qalib olmaqdır.

***Tərmenxan Babayev*** 2012-ci ildən Şərur rayonunda ağır atletika ilə məşğuldur. İlk məşqçisi Şəfi Hüseynov olan ağır atletimiz qısa vaxt ərzində uğurlu çıxışı ilə Azərbaycan milli komandasının məşqçilərinin də diqqətini cəlb edir. 2016-cı ildə ölkə birinciliyində çempion olmasını idmançı belə xatırlayır: – Özümə inamım çox idi. Bu idman növünü sevərək seçmişəm. Ölkə birinciliyinə yollanarkən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində görüş keçirildi və hər kəsin haqqında dediyi müsbət fikirlər məndə əlavə motivasiya yaratdı. Getdim və ilk böyük yarışımda çempion oldum. Növbəti ildə Tailandın paytaxtı Banqkokda keçirilən dünya birinciliyində B qrupunda mübarizə apardım. Qalib olduqdan sonra Buenos-Ayresdə keçiriləcək yeniyetmələrin olimpiadasına lisenziya qazandım. Həmin il uğurlarıma davam etdim və Kosovonun paytaxtı Priştinada keçirilən Avropa çempionatında yaşı 15-ə qədər olan atletlərin mübarizəsində Avropa çempionu olmaqla yanaşı, həm də 6 Avropa rekordunu yenilədim. Bu, tək mənim qələbəm yox, bütün Naxçıvanın qələbəsi idi. Həmin uğurlarla yanaşı, ilk dəfə çıxış etdiyim böyüklər arasında keçirilən respublika çempionatında ikinci, yeniyetmələr arasında keçirilən ölkə birinciliyində birinci, İtaliyanın Milan şəhərində keçirilən Avropa çempionatında 17 yaşadək oğlanlar arasında birdənqaldırmada ikinci, təkanla qaldırmada isə birinci oldum.



Tərmenxan Babayev üçün ən böyük uğur Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilən Yeniyetmələrin 3-cü Olimpiya oyunlarıdır. Belə ki, idmançımız həmin yarışda 85 kiloqram çəki dərəcəsində körpücük üzərinə çıxıb və gümüş medal qazanıb: “Bu, inanılmaz və sözlə ifadə edilə bilməz bir hissdir. Olimpiadaya ciddi hazırlaşmışdım. Ümumiyyətlə, Naxçıvanda idmana və idmançılara hər zaman diqqət və qayğı ilə yanaşılır. İştirak etdiyim bütün turnirlərdən sonra muxtar respublikada da mükafata layiq görülmüşəm. Bu isə biz idmançılar üçün əlavə stimuldur. İndi əsas məqsədim böyüklər arasında dünya və olimpiya çempionluğunu Naxçıvana gətirməkdir”.

2009-cu ildən cüdo ilə məşğul olan ***Abbas Məmmədov*** Naxçıvan cüdo məktəbinin ən istedadlı idmançısı hesab edilir. O, bir çox uğurlara imza atıb. 6 dəfə muxtar respublika çempionu olan Abbas ölkə birinciliklərində də daim mükafatçılar sırasına düşməyi bacarıb. Məhz bunun nəticəsidir ki, hazırda idmançımız Azərbaycanın yeniyetmələrdən ibarət milli komandasının üzvüdür. 17 yaşının olmasına baxmayaraq, cüdoçumuz zəngin karyeraya malikdir: Türkiyədəki beynəlxalq turnirdə 3 gümüş, 2 bürünc, Ukraynadakı beynəlxalq turnirdə 1 bürünc, Rusiyadakı beynəlxalq turnirdə 3 bürünc, Gürcüstan və İrandakı beynəlxalq turnirlərdə 2 qızıl medal qazanıb.



Altı yaşında bu idman növü ilə məşğul olmağa başlayan Abbas Məmmədov deyir: “İlk məşqçi-müəllimim olan atam Hafiz Məmmədov məşqlərə başladığım ilk gündən etibarən mənə ciddi yanaşmağı tövsiyə etdi. O gündən bütün turnirlərə yalnız qələbə qazanmaq üçün qatılıram. Bəzən qələbə xoşbəxtliyi mən tərəfdə olmur. Buna baxmayaraq, ruhdan düşmür və etdiyim səhvlərin üzərində məşq zamanı işləyirəm. Naxçıvanda idmançılar üçün hər bir şərait yaradılıb. Biz idmançılar indi köhnə zallarda yox, daha müasir idman obyektlərində məşq edirik. Bu da bizlərin uğur qazanmasında böyük rol oynayır ”.

***Nazlıcan Çakır*** Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin birinci kurs tələbəsidir. O, qardaş Türkiyə Cümhuriyyətinin İzmir şəhərindəndir. 10 yaşından idmanla məşğul olduğunu deyən müsahibim taekvando və krosla maraqlandığını bildirir. O, voleybol, futbol, badminton və divara dırmanma növləri ilə də məşğul olur: “Bunların bir çoxunu Naxçıvandakı şərait sayəsində öyrənmək imkanım oldu. Onu da deyim ki, universitetdə mənim kimi idmanla məşğul olan tələbələrə yaxından kömək edilir. Yoxsa indi həm dərslərimdən, həm də idman yarışlarından geri qalacaqdım. Buna görə Naxçıvan həyatımın dönüş nöqtəsi oldu: həm çox sevdiyim ixtisas üzrə təhsil alır, həm də idmanla məşğul oluram”.



Nazlıcan Çakır ilk dəfə Şərur rayonunun Tənənəm kəndində yerləşən Qazma mağarasında təşkil edilən spelio (mağara) turizm yürüşü üzrə muxtar respublika birincisi olub. Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr edilmiş qız tələbələr arasında badminton idman növü üzrə qalib olan Nazlıcan bunu “Naxçıvan Muxtar Respublikası-95” devizi altında qızlar arasında süni divara dırmanma yarışında da əldə edib. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən qız tələbələr arasında süni divara dırmanma yarışında o, fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. Marafon yarışında isə finiş xəttini ikinci keçib: “Bu uğurların hamısını Naxçıvanda əldə etmişəm. İndi bura mənə öz doğma yurdum kimi əzizdir. Muxtar respublikada yaradılan idman şəraiti bizləri bu sahə ilə daha ciddi məşğul olmağa sövq edir. Təhsilimi davam etdirəcəyim müddətdə idman həyatında da fəal olacağam. Yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm”.

*Bütün bu uğurlar əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş idmana, gənclərimizin sağlamlığına yüksək diqqət və qayğı siyasətinin muxtar respublika rəhbəri tərəfindən uğurla davam və inkişaf etdirilməsi sayəsində əldə olunub. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər qarşıdakı illərdə daha böyük uğurların əldə olunacağına güclü zəmin yaradır.*

**Ceyhun MƏMMƏDOV**
**Ramiyyə ƏKBƏROVA**
**Nail ƏSGƏROV**
**Pərviz HACILI**
**Güntac ŞAHMƏMMƏDLİ**

### İtmişdir

Vəliyev Vəli Süleyman oğlunun adına olan 0200541682 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Qarxun kənd sakini Niftalıyev Əli Həmzə oğlunun adına verilmiş JN-186A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Pərviz Hacılı
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 225